# MÜBARİZ KEŞİKDƏ

4 aprel 2019-cu il

Cümə axşamı

№ 12 (3427)

1933-cü ildən çıxır

www.mk.mia.gov.az

Qiymətı 40 qəpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.

# BAKININ NİZAMİ RAYONUNDAKI TİCARƏT MƏRKƏZİNDƏ BAŞ VERMİŞ YANĞINLA ƏLAQƏDAR PREZİDENT İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ MÜŞAVİRƏ KEÇİRİLİB

Bakının Nizami rayonundakı ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar martın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə müşavirə keçirilib.

Dövlətimizin başçısı müşavirədə çıxış edərək deyib ki, biz bu insanlara dövlət olaraq öz dəstəyimizi göstərəcəyik. İnkişaf etmiş ölkələrdə belə hadisələr baş verdikdə bütün maliyyə yükünü sığorta şirkətləri öz üzərinə götürür, bütün mallar sığortalanır. Ancaq əfsuslar olsun ki, Azərbaycanda sığorta sahəsində boşluqlar var…Azərbaycan çox güclü sosial siyasət aparır. Bu siyasət özünü müxtəlif sahələrdə büruzə verir. Bu ilin əvvəlində çox ciddi və böyük sosial paket təsdiqlənib. Sosial təşəbbüslər nəticəsində 3 milyondan çox insan bu proqramla əhatə olunur. Dünyada belə bir təşəbbüsün bənzəri yoxdur.

Ölkə rəhbərimiz qeyd edib ki, məsələni tam araşdırıb təklifləri vermək üçün komissiya yaradılacaq. Komissiya bir müddət işləyəcək. Ancaq operativ olaraq sahibkarlara ilkin mərhələdə maddi dəstək göstərilməlidir ki, bu vəziyyətdən çıxa bilsinlər. Gələcəkdə onları işlə təmin etmək üçün müvafiq addımlar atılacaq. Ticarət mərkəzinin sahibkarları isə dövlət tərəfindən zərər çəkənlərə veriləcək məbləğin ödənilməsini tam təmin etməlidirlər və edəcəklər.

Sonra fövqəladə hallar naziri Kəmaləddin Heydərov yanğının başvermə səbəbləri, əhatə dairəsi və həyata keçirilən təxirəsalınmaz tədbirlər barədə məlumat verib.



Baş prokuror Zakir Qaralov hadisə baş verən andan müvafiq qurumların birgə səyləri nəticəsində vəziyyətin nəzarətə alındığını, insanların həmin ərazidən təxliyə edildiyini bildirib. Baş prokuror hadisə ilə bağlı Cinayət Məcəlləsinin 225-ci maddəsi üzrə cinayət işinin qaldırıldığını, yanğın-texniki, tikinti-texniki, fiziki-kimyəvi və əmtəəşünaslıq ekspertizalarının təyin olunduğunu, qısa vaxtda yaranmış istintaq-əməliyyat qrupu tərəfindən bu ekspertizaların həyata keçiriləcəyini vurğulayıb.

Daxili işlər naziri Ramil Usubov məlumat verərək deyib ki, yanğın baş verdikdən dərhal sonra Daxili İşlər Nazirliyinin və Baş Polis İdarəsinin rəhbərliyi və şəxsi heyəti hadisə yerinə gedib, qarşıda duran vəzifələrlə bağlı operativ tədbirlər görüblər. Belə ki, yol polisi əməkdaşları yanğınsöndürənlərin hadisə yerinə vaxtında və maneəsiz çatmaları üçün lazımi şərait yaradıb, 400 nəfərdən çox polis əməkdaşı hadisə yerində təhlükəsizlik tədbirlərinin təmin olunmasına cəlb edilib, əhalinin oradan uzaqlaşdırılması, nəqliyyatın hərəkətinin məhdudlaşdırılması ilə bağlı zəruri tədbirlər görülüb. Nazir Ramil Usubov yanğının baş verməsi ilə bağlı müşahidə kameralarının qeydlərinin müvafiq qurumlara təqdim olunduğunu bildirib. Dövlətimizin başçısının tapşırığı ilə yaradılan komissiyanın tərkibində Daxili İşlər Nazirliyi əməkdaşlarının da təmsil olunacağını vurğulayan nazir tapşırıqların yüksək səviyyədə həyata keçiriləcəyini qeyd edib.

Müşavirədə iqtisadiyyat naziri Şahin Mustafayev və Nizami Rayon İcra Hakimiyyətinin başçısı Arif Qasımov da çıxış ediblər…

Müşavirəyə yekun vuran Prezident İlham Əliyev bunları bildirib:

-Bir daha demək istəyirəm ki, ilk növbədə, yanğının səbəbləri tam araşdırılmalıdır. İlkin versiyalar var. Kamera müşahidəsi də deməyə əsas verir ki, yanğın haradan başlayıb. Bunu nəzərə alaraq yekun rəy, əlbəttə ki, təqdim olunacaq. Eyni zamanda, bütün ticarət mərkəzlərində ciddi təftiş işləri aparılmalıdır, təhlükəsizlik tədbirləri gücləndirilməlidir... Sahibkarlara gəldikdə, bir daha demək istəyirəm ki, dövlət onların yanında olacaq. Onlara artıq bu məlumat verildi. Maliyyə dəstəyinin göstərilməsi operativ qaydada təşkil edilməlidir və müvafiq göstəriş verilib. Eyni zamanda, burada da qeyd olunduğu kimi, onlara güzəştli şərtlərlə kreditlər verilməlidir, dəymiş ziyan dəqiq hesablanmalıdır. Onların bu gün fəaliyyətdə olan digər ticarət mərkəzlərində yerləşdirilməsi ilə bağlı tədbirlər görülməlidir ki, işsiz qalmasınlar…

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AVSTRİYAYA İŞGÜZAR SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 28-də Avstriya Respublikasına işgüzar səfərə gəlib.

Azərbaycan Prezidenti həmin gün Avstriya Respublikasının vitse-kansleri Haynts-Kristian Ştraxe ilə görüşüb.

Martın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vyanada Ermənistan-Azərbaycan münaqişəsinin həllini müzakirə etmək üçün Ermənistanın baş naziri Nikol Paşinyan ilə görüşüb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 29-da Vyanada Avstriya Respublikasının Federal Kansleri Sebastian Kurts ilə görüşüb.

Federal Kansler Prezident İlham Əliyevi qarşılayıb.

Prezident İlham Əliyev və Federal Kansler Sebastian Kurts birgə foto çəkdiriblər.

Sonra Prezident İlham Əliyevin Federal Kansler Sebastian Kurts ilə təkbətək görüşü olub.

Görüş nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin martın 29-da Vyanada Avstriya Respublikasının Federal Prezidenti Aleksander Van der Bellen ilə görüşü olub.

Federal Prezident Aleksander Van der Bellen Prezident İlham Əliyevi qarşılayıb.

Prezidentlər birgə foto çəkdiriblər.

Azərbaycan Prezidenti İlham Əliyev martın 29-da Vyanada Rusiyanın TASS informasiya agentliyinə müsahibə verib.

Dövlət başçımızın Avstriya Respublikasına işgüzar səfəri martın 30-da başa çatıb.

***Martın 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyədə keçirilən bələdiyyə seçkiləri ilə əlaqədar Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng etmişdir.***

***Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı qurucusu olduğu və başçılıq etdiyi Ədalət və İnkişaf Partiyasının Türkiyədə keçirilən bələdiyyə seçkilərində inamlı qələbəsi münasibətilə təbrik etmişdir.***

***Aprelin 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında telefon danışığı olub.***

***Prezident İlham Əliyev və Prezident Vladimir Putin ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə martın 29-da Vyanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan arasında keçirilmiş ilk rəsmi görüşün nəticələri və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar prosesini müzakirə ediblər.***

***Azərbaycan Prezidenti İlham Əliyev aprelin 3-də Bakı-Tbilisi-Qars dəmir yolu xəttində hərəkət edəcək sərnişin qatarı ilə tanış olub.***

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev aprelin 2-də Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin N saylı hərbi hissəsində olub.***

**Azərbaycan Prezidenti İlham Əliyev martın 23-də Dəclə çayında bərənin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar İraq Respublikasının Prezidenti zati-aliləri cənab Bəhram Salehə başsağlığı teleqramı göndərib.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı martın 27-də baş vermiş təbii fəlakət nəticəsində insan tələfatı ilə əlaqədar İran İslam Respublikasının Prezidenti zati-aliləri cənab Həsən Ruhaniyə başsağlığı teleqramı göndərib.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri martın 27-də Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçularının mükafatlandırılması haqqında sərəncamlar imzalayıb.**

❖❖❖❖❖

***Azərbaycan Prezidenti İlham Əliyev martın 27-də Xarici Kəşfiyyat Xidmətinin rəisi Orxan Sedyar oğlu Sultanova general-leytenant ali hərbi rütbəsinin verilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri martın 28-də Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi və Xarici Kəşfiyyat xidmətlərinin şəxsi heyətini 100 illik yubileyləri münasibətilə təbrik edib.**

❖❖❖❖❖

***Martın 28-də dövlətimizin başçısı Bakı şəhərinin Nizami rayonu ərazisində "Diqlas" ticarət mərkəzində baş vermiş yanğınla əlaqədar Komissiyanın yaradılması və yanğın nəticəsində zərər çəkmiş sahibkarlara maddi yardım göstərilməsi haqqında sərəncamlar imzalayıb.***

❖❖❖❖❖

**Azərbaycan Prezidenti İlham Əliyev aprelin 1-də Rusiya Federasiyası Çeçenistan Respublikası başçısının müşaviri, Rusiya Dövlət Dumasının deputatı Adəm Delimxanovu qəbul edib.**

# DAHA BİR QƏLƏBƏ ÜNVANI
# LƏLƏ TƏPƏ

**Radiolar susmur, xəbərlər-xəbərləri əvəz edir. Televizor ekranından gözlərini çəkməyən insanlar özlərini bütövlükdə bu xəbərlərə həsr edib...**

Aprelin 1-dən 2-nə keçən gecədən başlayaraq, bütün cəbhə boyu Azərbaycan ordusunun mövqeləri və yaşayış məntəqələri düşmən tərəfindən intensiv atəşə məruz qaldı. Düşmən qoşunların təmas xəttində silahlı təxribatlar törətdi. Bu zaman dinc əhaliyə də hücumlar oldu. Azərbaycan ordusu şəhid verdi, mülki əhali arasında da ölən və yaralananlar oldu...

*Bax səh.2.*

# VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubov 2019-cu il aprel ayının 27-də Göyçay Rayon Polis Şöbəsində Göyçay, Mingəçevir, Ağsu, Şamaxı, İsmayıllı, Yevlax, Ucar, Kürdəmir və Ağdaş şəhər və rayonlarının sakinlərini qəbul edəcək.

Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

# GƏNC POLİS, VETERAN İDMANÇI

**Bir müddət öncə Qusarda evdə köməksiz vəziyyətdə qalan körpələri xilas etmək üçün həyatını təhlükəyə atan polis mayoru, Qusar Rayon Polis Şöbəsinin əməkdaşı Firudin Kərimov barəsində çox yazıldı, çox deyildi. Hadisədən sonra jurnalistlərin: “Siz özünüzü də təhlükəyə atdınız, hətta yaralandınız da, bəs qorxmadınız” sualına həmkarımız təmkinini pozmadan belə cavab vermişdi: “Biz polisik, hər bir çətinliyi göz önünə almalı və vətəndaşa təhlükədən yaxın olmalıyıq. Çünki bizə etibar edir, bizə inanırlar”...**

Onunla xidməti ezamiyyətdə olarkən görüşdüm. “Mən söz adamı deyiləm və sözdən qorxuram”,- desə də ötənlərdən, keçənlərdən bugünümüzə körpü saldı, dostlarını, birlikdə çiyin-çiyinə xidmət edib dünyasını dəyişənləri xatırlayıb kövrəldi də.



“Mən elə bilirdim ki, idmançıların ürəyi yumruqları kimi möhkəm olur”,- deyən RPŞ rəisinin köməkçisi, polis mayoru Tural Zeynalovun “Firudin Kərimov bu günlərdə usta cüdoçular arasında keçirilən Azərbaycan çempionatında 81 kiloqramda mübarizəyə qoşularaq finala yüksəlib və ikinci yerin sahibi olub” xəbəri isə lap yerinə düşdü.

“Dostlar dedilər ki, veteran idmançılar arasında yarış keçiriləcək. Düzü, bir az tərəddüd etdim. Sonradan qərar verdim ki, yarışda iştirak etməliyəm və gücümü sınamalıyam. Rəhbərlik də mənə dəstək verdi, məşqlər üçün lazımı şərait yaratdılar. Mən də ümidləri doğrultdum və ikinci yeri tutdum. Yarışın güclüləri bu il veteranlar arasında İspaniyada keçiriləcək dünya çempionatında iştirak etmək hüququ qazanıblar. Qismət olsa, gedəcəyəm”…

O, idmana kiçik yaşlarından başlayıb. Mənsub olduğu nəsli pəhləvanlar nəsli kimi tanıyırlar. Bir müddət güləşlə məşğul olub. Sonra isə cüdoda özünü sınayıb və qələbələrə imza atıb. İdmanda veteran olsa da bu gün polis əməkdaşı kimi sıralarımızdadır. Artıq illərdir ki, idman və polis peşəsi onun həyat tərzidir.

Qardaşları Firdovsi Kərimov və Teymur Kərimov torpaqlarımızın bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olublar. Özü də müharibə veteranıdır.

Bu Vətən nisgilli və təcrübəli həmkarımızı bir az da yaxından tanısaq, bilərik ki, 1967-ci ildə Ağdam rayonunun Quzanlı kəndində anadan olub. 1988-ci ildə Sumqayıt ŞPİ PPX-də polis nəfəri kimi xidmətə başlayıb. DİN Polis Akademiyasında təhsil aldıqdan sonra Qusar RPŞ-yə baş əməliyyat müvəkkili təyin edilib.

Ailəlidir, üç övladı, iki nəvəsi var.

# AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ VAKANT POST-PATRUL XİDMƏTİNİN POLİS NƏFƏRİ(KİÇİK RƏİS HEYƏTİ) VƏZİFƏLƏRİNDƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR

2019-cu il aprel ayının 15-də saat 8:00-da, Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubov tərəfindən DİN-in Əlahiddə Çevik Polis Alayında, Bakı Şəhər Baş Polis İdarəsinin tabeli orqanlarında və Sumqayıt, Abşeron şəhər, rayon polis idarələrində vakant (500 ştat) Post-Patrul Xidmətinin polis nəfəri (kiçik rəis heyəti) vəzifələrində xidmətə qəbulla bağlı Bakı şəhəri, Nobel prospekti 69 ünvanında yerləşən Əlahiddə Çevik Polis Alayında sıra baxışı keçiriləcək.

Sıra baxışında ali və ya orta-ixtisas, yaxud tam orta təhsilli, yaşı 20-dən 25-dək, boyu 180 santimetrdən hündür, idman cüssəli, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, əvvəllər özü və yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda yaşayış yeri üzrə daimi qeydiyyatda olan və yaşayan, "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları iştirak edə bilərlər.

Həmin vəzifələrdə əmək funksiyalarının spesifikliyi, yüksək fiziki və psixoloji gərginliklə bağlı olması, eləcə də xidmətin növbəli, bir çox hallarda əsas iş vaxtından əlavə müddətdə aparılacağı baxımından müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, biliyi, fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş qaydada yoxlanılacaq.

Kompyuter avadanlıqları ilə işləmək qabiliyyətinə malik, ali təhsilli və xarici dillərdən birini (əsasən, ingilis dili) sərbəst bilən vətəndaşlara üstünlük veriləcək.

***Əlavə məlumat almaq üçün əlaqə telefonları:***

***(012)-590-97-52;***
***(012)-590-92-14;***
***(012)-590-92-37;***
***(012)-590-93-45.***

**Daxili İşlər Nazirliyi**

# UNUDULMAYANLAR...

**Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar Sabunçu Rayon Mühafizə İdarəsində də anım mərasimi keçirilib.**

Torpaqlarımız uğrunda şəhid olan oğul və qızlarımızın əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsindən sonra tədbiri giriş sözü ilə açan polis polkovniki Əşrəf Allahyarov soyqırımı aktını xalqımıza qarşı tarixən törədilən ən qanlı cinayət kimi səciyyələndirdi. Qeyd edildi ki, 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirilib. Bakıdan başlanan qətliam bütün ölkəni əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə-yeksan edildi, minlərlə dinc insan yalnız milli mənsubiyyətinə görə məhv edildi, milli memarlıq inciləri, hətta məscidlər yandırılıb dağıdıldı.





Erməni vandalizminin, azərbaycanlılara qarşı soyqırımı siyasətinin gizlədilməsindən, ona lazımı hüquqi qiymət verilməməsindən söhbət açan idarə rəisi müxtəlif illərdə törədilən qırğınların vurduğu maddi və mənəvi ziyanı araşdırmaq üçün ilk milli cümhuriyyətimiz tərəfindən fövqəlada təhqiqat qrupunun yaradıldığını, həmin faktların bu gün tarixşünaslığımız üçün əvəzsiz olduğunu deyərək, qanlı faciələrlə bağlı ən tutarlı sənədin 80 il sonra qəbul edildiyini xatırlatdı.

Rəis müavini, polispolkovnik-leytenantı Sahib Cəfərli dedi ki, əgər tarixin təkrar olunmasını, torpaqlarımızın yenidən işğal edilməsini istəmiriksə, gənclərimizi vətənpərvər ruhunda böyütməli, ona düşmənini də tanıtmalıyıq.

Digər çıxış edənlər son iki əsrdə Qafqaza terroru gətirənlərin də məhz erməni millətçiləri olduqlarını və bu gün işğal olunmuş Azərbaycan torpaqlarının bir çox terror təşkilatlarının paliqonuna çevrildiyini vurğuladılar.

Tədbirə yekun vuran Ə.Allahyarov dünyada söz sahibinə çevrilən ölkəmizin siyasi dayaqlarının gü-nü-gündən möhkəmləndiyini, erməni yalanının ifşa edildiyini, Azərbaycan həqiqətlərinin qəbul edilməsini Prezidentimizin möhtəşəm siyasi uğuru kimi qiymətləndirdi və yaxın gələcəkdə işğal olunmuş torpaqlarımızın azad ediləcəyinə inamını ifadə etdi.

*H.Təmirov, polis mayoru*

# AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ TİBB İDARƏSİNİN MÜALİCƏ–PROFİLAKTİKA MÜƏSSİSƏLƏRİNDƏ VAKANT OLAN HƏKİM VƏZİFƏLƏRİNƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR

Elan olunmuş müsabiqədə dövlət ali təhsil müəssisələrində narkoloq, uroloq, onkoloq, travmatoloq, cərrah, neyrocərrah və epidemioloq ixtisası almış, tibb və təhsil müəssisələrində həmin ixtisas üzrə rezidentura keçmiş, ixtisas üzrə azı 5 il praktiki təcrübəyə malik, yaşı 35-dən yuxarı olmayan, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş (kişilər üçün), əvvəllər özü və yaxın qohumları məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə”də müəyyən olunmuş şərtlərə cavab verən, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda yaşayış yeri üzrə qeydiyyatda olan Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

Müsabiqədə iştirak etmək istəyən şəxslər 2019-cu il mart ayının 27-dən aprel ayının 27-dək **http://www.mia.gov.az/index.php?/az/content/29942** ünvanında yerləşdirilmiş elektron ərizə formasını şəxsən dolduraraq elektron poçt vasitəsi ilə Daxili İşlər Nazirliyinin Tibb İdarəsinin internet **medical@mia.gov.az** ünvanına göndərməlidirlər.

Elektron ərizənin qeydiyyata alınması barədə müvafiq məlumat aldıqdan sonra müsabiqədə iştirak etmək üçün dəvət edilən namizədlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

***-şəxsiyyət vəsiqəsi;***
***-ali təhsil haqqında diplom;***
***-hərbi bilet (kişilər üçün);***
***-əmək kitabçasının surəti.***

Müsabiqə qaliblərinə müvafiq xüsusi rütbə verilməklə Azərbaycan Respublikası DİN-in kadrları tərkibinə daxil edilərək ilkin olaraq 500 manat aylıq təminat xərcliyi, eləcə də göstərdiyi pullu xidmətə görə əlavə pul vəsaiti ödəniləcək, habelə onların qanunvericiliklə müəyyən olunmuş qaydada daxili işlər orqanları əməkdaşlarına şamil olunan bütün imtiyazlardan istifadə hüququ veriləcək.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları:**

**012-590-20-59**
**012-590-20-94.**

***DİN-in Baş Kadrlar İdarəsi***

# BU DƏFƏ DƏ VƏTƏNƏ QƏLƏBƏ İLƏ DÖNDÜ

**Vətəndən uzaqlarda polis idmançı üçün qələbə uğrunda mübarizə aparmaq ikiqat məsuliyyətlidir...**



Keçirdiyi döyüşlərin heç birində məğlub olmamışdı və bu dəfə də o, sevinclə Vətənə dönməliydi. Bütün döyüşlərində onu tək buraxmayan üçrəngli, ay-ulduzlu bayrağımız da yüksəklərdə dalğalanmaq üçün həmkarımızın qalib kimi əlinin havaya qalxmasını gözləyirdi. Qalibin şərəfinə Azərbaycanın dövlət himnini hər kəs ayaq üstə dinləməliydi.

Rəqibin yerli idmançı olması, yüzlərlə azarkeşin ona mənəvi dəstək verməsi döyüşün taleyində mühüm rol oynayırdı. Ancaq Xəzər RPİ Post-Patrul Xidməti Bölüyünün taqım komandiri, polis mayoru İlkin Səfərov, bütün döyüşlərində olduğu kimi, bu döyüşə də "hazırlıqlı" getmişdi. Bilirdi ki, yanında olmasalar da hər bir azərbaycanlının duası və alqışı onunladır.

On iki dövlətin ən güclü idmançısının iştirak etdiyi reytinq döyüşlərinin kulminasiya nöqtəsi azərbaycanlı idmançı ilə yerli döyüşçü Pavel Tryatikovun döyüşü oldu.

Yarışla bağlı təəssüratlarını bölüşən İ.Səfərov dedi ki, BFC 44 beynəlxalq yarışında qələbə qazanmaq elə də asan olmadı. Keçirdiyi qarşılaşmaların əksəriyyətindən qalib ayrılan rəqibinə döyüşün başladığı ilk dəqiqələrdən güclü zərbələrlə hücuma keçməsi sonda onun üstünlüyü ilə nəticələndi.

Və bu dəfə də o, Vətənimizə qələbə ilə döndü. Bu qalibiyyətlə polis mayoru İlkin Səfərov bir daha sübut etdi ki, Azərbaycan polisi cinayətkarlıqla qətiyyətlə mübarizə aparmaqla, asayişi etibarlı qorumaqla yanaşı, ölkəmizi ən mötəbər idman yarışlarında da layiqincə təmsil edirlər.

*T.Hafiz*

# HƏYATIMIZI QORUMAQ ÜÇÜN...

**“Maşını sürətlə, təhlükəsizlik kəməri taxmadan sürürdüm”, “Piyada keçidlərinə elə də əhəmiyyət vermirdim” yazaraq, səmimi etiraf edənlərin redaksiyamıza göndərdiyi məktubların sonu “Övladım mənə həyatımızı qorumaq üçün bilib əhəmiyyət vermədiklərimə riayət etməyi öyrətdi” cümlələri ilə bitir…**

“Yol hərəkəti qaydalarının uşaqlara öyrədilməsində bağçada, məktəbdə müəllimlərin, evdə və yollarda isə valideynlərin üzərinə böyük məsuliyyət düşür. Böyüklər müxtəlif vasitələrlə uşaqların yol hərəkəti qaydalarını öyrənməsinə, yol təhlükəsizliyi ilə bağlı maariflənməsinə çalışmalıdır” fikri ilə növbəti tədbiri Suparibağ kənd tam orta məktəbində açıq elan edən Astara RPŞ DYPB-nin rəisi, polis mayoru İlqar Rəhimzadə keçirilən tədbirlərin məqsədinin yollarda uşaqların həyat və sağlamlığının müdafiəsini təmin etmək, onları bu istiqamətdə bilgiləndirmək olduğunu dedi.





Qeyd edildi ki, uşaqların yol hərəkəti qaydaları haqqında biliklərin əyani şəkildə öyrədilməsi üçün əməli tədbirlərin görülməsini vacibdir və respublikamızın hər yerində olduğu kimi, Astarada da yol hərəkəti qaydalarının təbliği sahəsində görülən işlər müsbət nəticələrini verir, bu da uşaqların küçədə intizamlı olmalarına və bədbəxt hadisələrin qarşısının alınmasına kömək edir.

Məktəbin direktoru Nazənin Məmmədova polis əməkdaşları ilə məktəblilərin sıx əlaqə saxlamasının ümumi işə böyük fayda verdiyini, bu maarifləndirmə tədbirlərində uşaqlarda piyadanın vəzifələri, küçə, yol, səki, işıqfor barəsində onların başa düşəcəyi formada ilkin təsəvvür yaradıldığını bildirdi.

Rayon ağsaqqallarından Camal İbrahimov və çıxış edənlər DYPB tərəfindən görülən profilaktik tədbirlər nəticəsində qəzalarda ölən və yaralananların sayında azalma müşahidə olunduğunu, bu cür tədbirlərin uşaqların, eləcə də böyüklərin yollarda arzuolunmaz hadisələrlə üzləşməsinin qarşısını alan əsas amillərdən olduğunu dedilər.

Polis mayoru İ.Rəhimzadə xoşagəlməz halların yaşanmaması üçün həm sürücü, həm piyada, həm də sərnişin kimi qaydalara əməl etməyin vacibliyini, sürücülərin və azyaşlıların valideynlərinin xüsusilə məktəblərin, təhsil müəssisələrinin yaxınlığındakı yollarda maksimum diqqətli olmalarını, yeraltı və yerüstü, nizamlanan və nizamlanmayan piyada keçidlərindən istifadə etmələrini diqqətə çatdırdı.

Sonda yol hərəkəti qaydaları ilə bağlı videoçarx nümayiş olundu.

*Natiq Abdullayev, polis baş leytenantı*




# ŞƏHİD RUHUNA İTHAF

**Bu günlərdə işıq üzü görən "İnam bir silahdır" kitabı əməkdar müəllim Tamilla Əmirkişiqızının oxucularla 18-ci görüşüdür.**

Torpaqlarımızın bütövlüyü uğrunda şəhidlər verən Şahmuradovlar ailəsindən bəhs edən kitabda müəllifin adları Azərbaycan tarixində hörmətlə anılan, Vətənin daşnaklardan təmizlənməsində misilsiz şücaətlər göstərən Soltan və Xosrov bəy qardaşlarının Şahmuradovlar nəslindən olmasına xüsusi diqqət çəkməsi kitabın ərsəyə gəlməsini şərtləndirən əsas amillərdəndir.

İnanırıq ki, həmkarımız, Şahmuradovlar ailəsinin bir üzvü, Gəncə Şəhər Baş Polis İdarəsi Qeydiyyat və şəxsiyyət vəsiqəsi şöbəsinin rəisi, polis polkovnik-leytenantı, şəhid polisimizin ömür-gün yoldaşı Təranə Şahmuradovanı, onun ömürləri tarixə dönən şəhid qardaşları Natiqi və Namiqi də bu toplu vasitəsilə daha yaxından tanımaq imkanınız olacaq.

*Hafiz Təmirov*

# BU DÜNYANI NAĞIL BİLƏK...

**ABŞ universitetlərinin birində aparılan tədqiqat müəyyən edib ki, gülüş insanlarda stresin azalmasına və ya yox olmasına, immunitetə cavabdeh hüceyrələrin sayının çoxalmasına səbəb olur. Hətta uzun müddət gülən insanda həzm sistemi normallaşır, iştah artır.**

1 aprel bütün dünyada Beynəlxalq Gülüş günü kimi qeyd olunur. Bu gün haqqında bir çox rəvayətlər var. Yazırlar ki, ənənə 500 il əvvəl Fransada yaranıb. O vaxt fransızlar yeni ili məhz həmin gün qarşılayıblar. Amma Fransa kralı qərar verib ki, yeni il yanvarın 1-də qeyd olunsun. Xalq kralın qərarından narazı qalıb və buna etiraz etmək üçün müxtəlif tədbirlər keçirib. Biri belə olub: Kralın yaxın adamlarını qonaqlığa dəvət ediblər, özləri həmin yerə gəlməyib onları pərt ediblər, yalan xəbərlər yayıblar. Bütün bunlara baxmayaraq, kral qərarını dəyişməyib.

Aradan illər keçib, hamı yeni ili yanvarın 1-də qeyd etməyə öyrəşib. Bununla belə, 1 apreli də unutmayıblar. Tezliklə bu ənənə bütün dünyaya yayılıb.

Unutmayın ki, insanlar emosional halları ilə bir-birlərinə təsir edirlər. Çalışın, sizin gülüşünüz, ağıllı zarafatlarınız yadda qalsın. Həyatınızda ürəkdən güldüyünüz anları çoxaldaraq ətrafınızda xoş ab - hava yardın. Hamıya təbəssüm bəxş edin, ürəkdən gülün.

***Bir də ki, bu aləmdə heç nə itmir, yox olmur. Sizdən olan gec-tez sizi tapacaq...***

*Ruhiyyə Əliyeva,*
*polis leytenantı*



Yeri gəlmişkən, bütün bu mənzərəyə təhlükəsiz şəhər kameralarının da "gözü"ndən baxmaq olar.

***"Təhlükəsiz Şəhər" Xidmətinin rəisi, polis polkovnik-leytenantı Ceyhun Dəmirov, xidmətin əməkdaşlarından polis kapitanı Aytən Bağırova, polis baş leytenantı Vüqar Abbasov, polis serjantları Əziz İsayev və Ömər İbrahimov hər gün bu gözəlliyə şahidlik edirlər.***

# SEVİRLƏR, QORUYURLAR

Bu şəhərdə yaşamaq da, işləmək də, istirahət etmək də xoşdur, rahatdır. Gəncənin necə böyük sürətlə inkişaf etməsi, abadlaşdırılması, tarixi keçmişi qorunmaqla müasirliyə qovuşması, əsrarəngiz bir şəhərə çevrilməsi isə bir başqa söhbətin mövzusu, yazarların işidir. Mənsə gördüyümü, görünənləri fotonun yaddaşına çevirirəm. Beləliklə, gördüklərim bunlardır: Tərtəmiz şəhər, rahat, təmiz yollar, yaraşıqlı xiyabanlar. Və bu xiyabanlarda gəzən, dincələn insanlarımız.



*Üzeyir Muradov*


# "XƏZRİ" sizi gözləyir!




**Qeyd:** 1. "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

2. Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

3. Bir günlük xərc tək polis əməkdaşı üçün 22,50 manat (iki nəfərlik nömrəni tək tutduqda 37,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 67,50 manat, özü və 5-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 67,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 90,00 manat və onlarla birgə 5-12 yaşadək uşağa əlavə yer verildikdə 120,00 manat təşkil edir.

4. Üç yaşdan aşağı uşaqlar Mərkəzə qəbul edilmir.

5. 3-5 yaşda uşaqların qalması ödənişsizdir.

6. Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, akvaparkdan, trenajorlardan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

**Daxili İşlər Nazirliyinin "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 8 fevral-31 may 2019-cu il tarixlərdə mövsüm üzrə qiymətləri**
**(daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Mərkəzə "Koroğlu" metro stansiyasından 171 nömrəli avtobuslar gəlir.**
**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**E-poçt: info@khazribaku.az**
**Veb-sayt: www.khazri.mia.gov.az**

| 08 fevral - 31 may 2019-cu il<br>(2 nəfərlik standart otağın güzəştsiz qiyməti : iki nəfər qaldıqda 180 manat, bir nəfər tək qaldıqda 150 manat) | | |
|---|---|---|
| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 22,50 manat | 37,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 45,00 manat | 75,00 manat |
| Polis əməkdaşı ilə birgə 5-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 30,00 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 90,00 manat | 150,00 manat |
| Valideyni ilə birgə 5-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 60,00 manat | |





Yeni Zelandiyada baş verən terror aktından sonra silah haqqında qanuna yenidən baxmaq niyyətindədirlər. Hazırda Yeni Zelandiyanın 16 yaşdan yuxarı istənilən vətəndaşı cəmi 25 dollara odlu silah gəzdirməyə lisenziya ala bilir. Bu hüquq öz ölkələrində polis tərəfindən verilən icazəni təqdim edən turistlərə də şamil olunur. Turistə odlu silah gəzdirmək üçün verilən lisenziya 12 ay ərzində qüvvədə qalır. Həmçinin Yeni Zelandiyada döyüş sursatının həcminə məhdudiyyət qoyulmur, odlu silah və onun sahibi barədə reyestr mövcud deyil.

Christchurch şəhərində 50 nəfər qətlə yetirildikdən sonra Baş nazir Casinda Ardern silah haqqında qanunda təcili islahat aparılmalı olduğunu bildirib.

*****

***BMT Fransa təhlükəsizlik qüvvələrinin "sarı jiletlər" etiraz aksiyasının iştirakçılarına qarşı son dərəcə sərt tədbirlərdən istifadə etməsi ilə bağlı narahatlığını bildirib. BMT-nin insan hüquqları üzrə ali komissarı Mişel Başele Cenevrədə İnsan Hüquqları Şurasındakı çıxışında polisin nümayişçilərə qarşı tətbiq etdiyi zorakılıq hallarının ətraflı araşdırılmasını tələb edib. "Fransa hökumətini dialoqu davam etdirməyə çağırır və həddən artıq sərt tədbirlərdən istifadə halları ilə bağlı dərin təhqiqatların aparılmasını tələb edirik", - deyə komissar vurğulayıb.***

***Fransada "sarı jiletlilər"in etiraz aksiyaları zamanı iştirakçılara qarşı gözyaşardıcı qazdan istifadə edilməsi ilə bağlı 174 cinayət işi açılıb. Bunu Fransanın daxili işlər naziri Kristof Kastaner açıqlayıb. Onun sözlərinə görə, əgər istintaq zamanı gözyaşardıcı qazın düzgün istifadə edilməyidiyi aşkar edilərsə onda polislər məsuliyyətə cəlb ediləcəklər.***

*****

Yaponiya polisi 2018-ci ildə əcnəbilər üçün rekord miqdarda - 620 ədəd saxta rezident kartı qeydə alıb. Bunun statistikanın aparılmağa başladığı 2013-cü ildən bəri rekord rəqəm olduğu bildirilir.

Yaponiyada yaşayan əcnəbilər rezident kartını daim özləri ilə gəzdirməlidirlər. Bu sənəddə onun sahibinin adı, doğum tarixi, statusu və ölkədə qalma müddəti göstərilir.

Polisin bildirdiyinə görə, internetdə yüksək keyfiyyətli rezident kartlarının satışı barədə elanlar da aşkar edilib.

*****

***Ukrayna polisi "Kalaşnikov" markalı avtomatlardan və "Makarov" tipli tapançalardan imtina edəcək. Bunu Ukrayna Milli Polisinin rəhbəri Sergey Knyazev bildirib. Onun sözlərinə görə, polisin Rusiyada hazırlanan mövcud silahları Avropa ölkələrinin istehsalı olanlarla əvəzlənəcək: "Bizim çox iddialı hədəfimiz var. Avtomat "Kalaşnikov", "Makarov" və "TT" tipli tapançalardan 90 faiz imtina etməyi planlaşdırırıq".***

*****

İtaliya parlamentinin Senatı oğrulardan özünümüdafiəni asanlaşdıran qanun qəbul edib. Qanun layihəsi səslərin böyük üstünlüyü ilə qəbul olunub. Sənəddə evə basqın etmiş oğrulara qarşı silahdan istifadə edən vətəndaşlara bəraət qazandırmaq nəzərdə tutulub.

İtalyanın daxili işlər naziri Matteo Salvinin fikrincə, qanun vicdanlı vətəndaşlara öz hüquqlarını qorumaqda kömək edəcək.

*N.Cavadov,*
*polis kapitanı*

# Martın 27-dən aprelin 2-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən ötən həftə ərzində 137 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 53 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 170 nəfər, o cümlədən mülki hüquqi öhdəliklərin icrasından yayındığına görə 9 nəfər, borclu şəxs qismində axtarışda olan 93 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 12 ağır yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 13 nəfər ölmüş, 5 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 76 fakt müəyyən edilmişdir.

Baş Kadrlar İdarəsinin rəisi Rafiq Abbasov və şəxsi heyəti Sadiq Gözəlova əzizi

**MƏHƏMMƏDƏLİ kişinin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş İnformasiya Kommunikasiya İdarəsinin rəisi Dilqəm Aslanov və şəxsi heyəti Sadiq Gözəlova əzizi

**MƏHƏMMƏDƏLİ kişinin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Daxili Təhqiqatlar İdarəsinin rəisi Sahib Mirzəyev və şəxsi heyəti Sadiq Gözəlova əzizi

**MƏHƏMMƏDƏLİ kişinin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Mətbuat Xidmətinin rəisi Ehsan Zahidov və şəxsi heyəti SadiqGözəlova əzizi

**MƏHƏMMƏDƏLİ kişinin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Şəxsi Heyətlə İş İdarəsinin rəisi Rahib Qarayev və şəxsi heyəti Sadiq Gözəlova əzizi

**MƏHƏMMƏDƏLİ kişinin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Veteranlar Şurasının sədri Fərhad Süleymanov və Şuranın üzvləri Sadiq Gözəlova əzizi

**MƏHƏMMƏDƏLİ kişinin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

DİN Maliyyə-Plan İdarəsinin rəisi Ramil Baloğlanov və şəxsi heyəti Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinin əməkdaşı Eldar Qasımova atası

**MAİS QASIMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mehriban Quliyeva, Aygün Kərimova, Natiq Nəsirov, Rəhilə Heydərova Eldar Qasımova atası

**MAİS QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

DİO Maddi-Texniki və Sosial Bazasının Möhkəmləndirilməsi Fondunun kollektivi icraçı direktor Sadiq Gözəlova əzizi

**MƏHƏMMƏDƏLİ kişinin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Şəxsi Heyətlə İş İdarəsinin rəisi Rahib Qarayev və şəxsi heyəti istefada olan polis polkovniki Maksim Qədirova qardaşı

**ƏLƏMDAR QƏDİROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Mətbuat Xidmətinin rəisi Ehsan Zahidov və şəxsi heyəti Səbail RPİ 9-cu PB-nin rəisi Elsevər Qədirova əmisi

**ƏLƏMDAR QƏDİROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Veteranlar Şurasının sədri Fərhad Süleymanov və Şuranın üzvləri Maksim Qədirova qardaşı

**ƏLƏMDAR QƏDİROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Səbail RPİ-nin rəisi Cavid Muradov və şəxsi heyəti Elsevər Qədirova əmisi

**ƏLƏMDAR QƏDİROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Beyləqan RPŞ-nin rəisi Rəşid Piriyev və şəxsi heyəti iş yoldaşları

**VİDADİ ƏLİYEVİN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

MÜBARİZ KEŞİKDƏ
qəzetinin Kompyuter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
Redaktor
CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 9.978
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:00